

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 mart 2024-cü il №16 (2827) https://mod.gov.az Qiymətı 30 qəpik

## Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



*Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

Almaniya Federativ Respublikasının aparıcı şirkətlərinin rəhbərlərindən ibarət nümayəndə heyətinə Almaniya-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, "Falk" konsaltinq şirkətinin icraçı direktoru Tomas Falk, "Uniper Global Commodities SE" şirkətinin birinci vitse-prezidenti Uve Fip, "Rhenus Group" beynəlxalq nəqliyyat şirkətinin layihələr üzrə idarə heyətinin direktoru Heinrix Kerstgens, "VNG" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Ulf Heitmüller və "HHLA International" şirkətinin icraçı direktoru Filip Sveens daxildir.

Dövlətimizin başçısı alman iş adamları ilə ötən il Berlində, bu yaxınlarda isə Münxendə keçirdiyi görüşlərini məmnunluqla xatırlayaraq, indi də böyük nümayəndə heyətinin iqtisadi əməkdaşlığın gündəliyinin müzakirəsi üçün Azərbaycana səfər etməsinin önəmini qeyd edib.

Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Ralf Horlemann nümayəndə heyətinin adından İlham Əliyevin yenidən Prezident seçildiyi vaxtda qəbula görə minnətdarlığını bildirib. Səfir Prezident İlham Əliyevin Münxen səfəri zamanı Almaniya Kansleri ilə keçirdiyi görüşlərinin təəssüratı altında olduqlarını deyib. O, eyni zamanda, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün bu gün Berlində keçirilməsindən məmnunluqlarını ifadə edib və ölkəsinin sülh prosesini konstruktiv şəkildə dəstəklədiyini vurğulayıb.

Səfir qeyd edib ki, COP29-un keçirildiyi bu ildə sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün bir imkan yaranıb, bu da öz növbəsində sabitlik, iqtisadi inkişaf, əmin-amanlıq baxımından çox önəmlidir. O deyib ki, iş adamlarından ibarət böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əsas məqsədlərindən biri də ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını nümayiş etdirməkdən ibarətdir. Səfir vurğulayıb ki, Azərbaycan Prezidentinin də inauqurasiya nitqində dediyi kimi iqtisadi, o cümlədən enerji sahəsində transformasiya məsələlərinin gündəlikdə durması əməkdaşlıq üçün böyük imkanlar yaradır. Xüsusi olaraq vurğulayıb ki, Almaniya biznes dairələri və şirkətləri bu gündəliyə böyük töhfələrini verməyə hazırdır.

O, qəbula görə bir daha dövlətimizin başçısına minnətdarlığını bildirərək, nümayəndə heyətinin səfərinin əməkdaşlığın genişlənməsi baxımından səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu ifadə edib.

Böyük nümayəndə heyətinin Azərbaycana səfərini yüksək qiymətləndirən dövlətimizin başçısı iqtisadi sahənin ikitərəfli münasibətlərimizdə həmişə mühüm rol oynadığını deyərək, bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirib. Prezident İlham Əliyev keçən il Berlinə səfəri zamanı Almaniya Kansleri ilə görüşündə əlaqələrimizin geniş gündəliyinə daxil olan məsələlərin, o cümlədən iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd edib. Eyni zamanda, Kansler Şoltsun təşəbbüsü ilə bu yaxınlarda Münxendə Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilən görüşün sülh prosesinə dinamizm gətirilməsi baxımından önəmini vurğulayıb. Bununla yanaşı, Almaniya tərəfinin təklifi ilə xarici işlər nazirləri arasında Berlində görüşün keçirilməsinin də Azərbaycan tərəfindən dəstəkləndiyini qeyd edib. Belə ki, Almaniya qonşuluğunda yerləşən, necə deyərlər, alovun üstünə benzin tökən və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir.

"Beynəlxalq hüququn normaları bizim tərəfimizdədir", - deyən Prezident İlham Əliyev vurğulayıb ki, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı bizi hər hansı günahlandırma cəhdləri tamamilə əsassız və qərəzlidir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır. Dövlətimizin başçısı təəssüf hissi ilə qeyd edib ki, bu gün ikili standartlar bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib. Bu baxımdan Cozef Borrelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib. Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Belə ki, Borrel bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Əvvəla, Borrel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın guya Azərbaycanın Ermənistana hücuma hazırlaşması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir. Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə sərhəddə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat və dəqiq cavab verməli olduq. Bizim bu cavab bir neçə dəqiqə çəkdi və Ermənistanın bunu dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq və dediyim kimi, ötən ilin sentyabrından bu hadisə istisna olmaqla sərhəddə sakitçilik hökm sürür. Deməli, cənab Borrel və cənab Makron bu informasiyanı reallıqdan deyil, öz xəyallarından götürürlər.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan sülh prosesinə sadiqdir. Məhz biz İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış etdik. Əslində, biz sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladıq və sülh müqaviləsinin mətninin layihəsini təqdim etdik. Beləliklə, biz əgər sülh istəmiriksə, niyə bunların hamısını hazırlamışıq?!

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan əraziləri 30 il Ermənistanın işğalı altında olub. Ermənilər torpaqlarımızın 20 faizini işğal edərək həmin əraziləri dağıdıblar, o vaxt 1 milyona yaxın soydaşımız məcburi köçkün vəziyyətinə düşdü. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan bu müddətdə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, beynəlxalq hüququn normalarına, o cümlədən humanitar normalara məhəl qoymadı. İki gün əvvəl ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımını törətdilər. İndi biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdikdən və Qarabağda separatizm yuvasını dağıtdıqdan sonra hücumlara məruz qalmışıq. Biz Makron, Borrel və onlar kimi digər insanlar tərəfindən günahlandırılırıq. Ukraynanı götürək, Ukrayna öz ərazi bütövlüyünü bərpa etmək istəyir. Almaniya və digər ölkələr Ukraynaya silahlar göndərir. Siz hamınız bəyan edirsiniz ki, Ukrayna öz ərazi bütövlüyünü təmin etməlidir. Bəs bizim ərazi bütövlüyümüz?! Məgər bu məsələ Ukrayna məsələsindən daha az önəmlidir? Əfsuslar olsun ki, biz Cənubi Qafqazda ayırıcı xətlərin qurulması cəhdlərini görürük. Bununla bağlı Azərbaycanda bir çox insanlar belə düşünürlər ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstan və Ermənistanı çox yaxın qəbul etdikləri, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu bizim İslam dinimizdir. Mən demirəm ki, bu mənim şəxsi fikrimdir, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs Kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?! Almaniya Kansleri qərəzsizlik nümayiş etdirir, onun bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkaranə və məqsədyönlü şəkildə edir. Bildiyiniz kimi, biz bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlmişik. Çünki əgər bizim öz mövqeyimizi bildirmək hüququmuz yoxdursa, nəyə görə orada olmalıyıq?!

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

https://mod.gov.az

2 mart 2024-cü il

# Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib





(Əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev bildirib ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik. Dövlətimizin başçısı bir məsələni də təəssüf hissi ilə qeyd edib ki, Almaniya mətbuatında Azərbaycan guya azadlıqların təmin olunmadığı, insanların öz fikirlərinə görə həbs olunduğu, diktaturanın hökm sürdüyü despotik bir ölkə kimi təqdim edilir. "Bu, tamamilə yalandır və mən bundan təəssüf hissi keçirirəm", - deyən Prezident İlham Əliyev bunu həmin yazıların müəlliflərinin özlərinin də yaxşı bildiyini vurğulayıb və qeyd edib ki, Azərbaycanda bir neçə ildir fəaliyyət göstərən Almaniya səfiri də ölkəmizdə gedən proseslərin şahididir. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan haqqında bilərəkdən çox mənfi təəssürat yaradılır. Dövlətimizin başçısı deyib: "Bütün bunlar bizim həyata keçirdiyimiz işlərə mane ola bilərmi?! Xeyr! Biz istər ərazi bütövlüyünün bərpası, istər iqtisadi gündəliyimizlə bağlı öz xalqımızın, ölkəmizin rifahı naminə işlər görürük".

Azərbaycanın özünü təmin edən ölkə olduğunu qeyd edən dövlətimizin başçısı bildirib ki, ölkəmizdə gedən proseslər və həyata keçirilən işlər Azərbaycanın normal həyatını təmin edir. Kimsə bizim inkişafımıza töhfə vermək istəyirsə, biz minnətdar olarıq. Bu olmazsa, biz yenə də təəssüflənməyəcəyik.

Sovet dövründə 70 il ölkəmizin dövlətçilikdən məhrum olduğunu deyən Prezident İlham Əliyev qeyd edib ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenicə bərpa etdiyi vaxtda Ermənistanın ölkəmizə qarşı təcavüzü ilə üzləşdi və müstəqilliyin bərpasından 4 ay sonra ermənilər Xocalı soyqırımını törətdilər. Yüzlərlə şəhər və kəndimizi işğal etdilər, oraları dağıtdılar. Otuz illik bir müddətdə özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. Biz öz torpaqlarımızı azad etməyə başlayanda bu üç ölkə bizə təzyiqlər göstərməyə başladı. Hər biri bizi öz yolumuzdan döndərmək üçün müxtəlif alətlərdən istifadə etdi. Onlar istəmirdilər ki, biz öz torpaqlarımızı azad edək. Ötən ilin sentyabrında biz separatizmə son qoyduğumuz zaman onlar yenə də səhv etdilər. Onların bəziləri indi də səhv edirlər. Mən ABŞ və Fransanı nəzərdə tuturam. Düşünürəm ki, Rusiya indi nəyin baş verdiyini yaxşı anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransa da eyni cür hərəkət etməlidirlər. Əks təqdirdə, vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazda buranın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər.

Almaniyanın ölkəmizdəki səfiri verilən məlumatlara görə dövlətimizin başçısına minnətdarlığını bildirib və qeyd edib ki, həqiqətən ölkəmiz haqqında təəssüratlara malik olmaq üçün buradakı prosesləri öz gözləri ilə görmək vacibdir və elə nümayəndə heyətinin səfərinin məqsədlərindən biri də bundan ibarətdir.

Mixael Harms Münxendəki görüşdən az müddət sonra yenidən Azərbaycan Prezidentinin qəbulundan şərəf hissi keçirdiklərini bildirib və buna görə minnətdarlığını ifadə edib. Qonaq ölkəmizə infrastruktur, sənaye, kənd təsərrüfatı, bank və maliyyə, alternativ enerji və digər sahələrlə məşğul olan 40-dan artıq şirkətin rəhbəri və nümayəndələri ilə gəldiklərini vurğulayaraq, Azərbaycanda səmərəli görüşlər keçirdiklərini bildirib. O, müzakirələr zamanı belə bir nəticəyə gəldiklərini qeyd edib ki, Azərbaycan iqtisadi islahatlarla bağlı böyük işlər həyata keçirir. Digər nəticə bundan ibarətdir ki, ölkələrimizin yalnız ənənəvi enerji sektorunda deyil, başqa sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanları var.

O vurğulayıb ki, Almaniya biznes dairələri Azərbaycanın Cənubi Qafqazda sülh proseslərinə sadiqliyini yüksək qiymətləndirir və bu da öz növbəsində bütün regionda müsbət inkişafın əsasını qoya bilər.

Görüşdə iqtisadi əlaqələrin perspektivləri, o cümlədən energetika, birgə layihələr, investisiya və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Heydər Əliyev adına Hərbi Liseyin müstəqil fəaliyyətə başlamasının və Ümummilli Liderin Hərbi Liseydə xatirəsinin əbədiləşdirilməsinin ildönümü qeyd edilib





Heydər Əliyev adına Hərbi Liseyin müstəqil fəaliyyətə başlamasının və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Hərbi Liseydə xatirəsinin əbədiləşdirilməsinin 20-ci ildönümü qeyd edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Hərbi Liseydə xatirəsinin əbədiləşdirilməsinin 20-ci ildönümü münasibətilə liseyin hərbi qulluqçuları və kursantları hərbi marşlar ifa edərək Heydər Əliyev Muzeyinə yürüş ediblər.

Hərbi qulluqçular, pedaqoji kollektiv və kursantlar Azərbaycan xalqının Ümummilli Liderinin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə güllər düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Hərbi liseyin kollektivi Heydər Əliyev Muzeyini ziyarət edib, dahi rəhbərin zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumat əldə ediblər.

Daha sonra Hərbi liseydə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini şəxsi heyətə çatdırıb.

Bildirilib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu qısa müddətdə böyük inkişaf yolu keçib. Əcdadlarımızın hərbi ənənələrini yaşadan, xalqın sevgisi və dövlətin qayğısı ilə əhatə olunmuş Azərbaycan Ordusu Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin müdafiə qüdrətinin artırılmasında böyük uğurlar qazanıb.

Vurğulanıb ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin "Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında" 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil hərbi liseyin fəaliyyətə başlaması ilə Ümummilli Liderimizin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan onun doğma yurdunda yaratdığı Hərbi lisey oldu.

General-polkovnik K.Mustafayev qeyd edib ki, artıq 20 ildir ki, müstəqil fəaliyyət göstərərək Ulu Öndərin adına layiq nümunəvi təhsil müəssisəsi olaraq savadlı, bacarıqlı, vətənpərvər zabitlərin yetişdirilməsi ilə ordumuza böyük töhfə verən Hərbi lisey ətrafında yüzlərlə vətənpərvər gənci birləşdirən mötəbər hərbi təhsil müəssisəsinə çevrilib. Torpaqlarımızın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında Heydər Əliyev adına Hərbi Liseyin məzunları da şərəfli döyüş yolu keçərək qəhrəmanlıq göstərib, adları tarixin şanlı səhifələrinə yazılıb.



Heydər Əliyev adına Hərbi Liseyin rəisi polkovnik Elşad Həsənov və liseyin ictimai fənlər bölməsinin rəisi Mirismayıl Seyidov Hərbi liseyin keçdiyi inkişaf yolundan danışıb, kursantların hərbi biliklərə yiyələnməsi üçün yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Çıxışların ardından tədrisdə və pedaqoji fəaliyyətində əldə etdikləri nailiyyətlərə görə bir qrup hərbi qulluqçu, müəllim və kursantın mükafatlandırılması ilə bağlı Əlahiddə Ümumqoşun Ordu komandanının əmri tədbir iştirakçılarına çatdırılıb və mükafatlar təqdim olunub.

Sonra şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

Sonda Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik K.Mustafayev pedaqoji heyətlə görüşərək əlamətdar gün münasibətilə kollektivi bir daha təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

# Azərbaycanın müdafiə naziri Türkiyənin milli müdafiə nazirinin müavini ilə görüşüb







*Fevralın 27-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının milli müdafiə nazirinin müavini cənab Şuay Alpayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Görüşdən əvvəl türkiyəli qonaqlar Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Müdafiə Nazirliyində keçirilən görüşdə Türkiyə nümayəndə heyətini salamlayan general-polkovnik Zakir Həsənov onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edən müdafiə naziri hərbi əməkdaşlığın daha da genişləndirilməsi baxımından bu cür görüşlərin vacibliyini xüsusi vurğulayıb.

General-polkovnik Zakir Həsənov Azərbaycan-Ermənistan şərti sərhədindəki əməliyyat şəraiti, eləcə də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlardan danışıb.

Özünün də Azərbaycanın bir övladı olduğunu qeyd edən cənab Ş.Alpay göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Cənab Ş.Alpay Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülərin salamlarını çatdırıb, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan, uğurla inkişaf edən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının hazırkı vəziyyətindən məmnunluğunu ifadə edib.

Türkiyə Respublikasının Azərbaycandakı səfiri cənab Cahit Bağcının da iştirak etdiyi görüşdə regional hərbi əməkdaşlıq sahəsində inkişaf perspektivləri, təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.





Müdafiə naziri Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təltif edilən cənab Ş.Alpaya "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalını təqdim edib.

Sonra Ş.Alpayın rəhbərlik etdiyi nümayəndə heyəti müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay ilə görüşüb.

Keçirilən görüşlərdə Türkiyədə istehsal olunan müxtəlif növ uçuş vasitələrinin modelləri təqdim olunub, qarşılıqlı hədiyyə mübadiləsi aparılıb.



# Türkiyənin milli müdafiə nazirinin müavini Hərbi institutu ziyarət edib





Ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının milli müdafiə nazirinin müavini cənab Şuay Alpayın rəhbərlik etdiyi nümayəndə heyəti Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edib.

Əvvəlcə Hərbi institutun qərargahı qarşısında ucaldılan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi, eləcə də institutun Vətən müharibəsində şəhid olan hərbi qulluqçularının Xatirə kompleksi ziyarət edilib, qarşısına qızılgüllər qoyulub, xatirələri dərin hörmət və ehtiramla anılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki qonaqlara Hərbi institutun tarixi və əsas fəaliyyət istiqamətləri barədə brifinq təqdim edilib, iki qardaş ölkə arasında hərbi təhsil sahəsində görülən işlərdən və perspektiv planlardan danışılıb.

Türkiyə nümayəndə heyəti institutun ərazisindəki muzeydə Ulu Öndərin həyat və siyasi fəaliyyətini əks etdirən fotostendlə tanış olub, xatirə kitabına ürək sözlərini yazıb.

Qonaqlar kursantların tədris prosesi ilə də maraqlanıblar.

Hərbi institutun akt zalında keçirilən tədbirdə Ulu Öndərlər Heydər Əliyev və Mustafa Kamal Atatürkün, eləcə də şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri ifa edilib.

Tədbirdə çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyəti dövründə igid, qorxmaz oğullarımızın azadlıq uğrunda apardıqları mübarizədən, tarixi köklərə və qardaşlığa söykənən Azərbaycan-Türkiyə əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən, bu əlaqələrin bütün türk dünyası üçün mühüm əhəmiyyətə malik olmasından, qardaş ölkə Türkiyənin Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü hər zaman dəstəkləməsindən danışıblar.

Sonda birgə xatirə şəkli çəkdirilib, qarşılıqlı hədiyyələr təqdim olunub.

# General-mayor Akim Abbasovun xatirəsi yad edilib



Fevralın 27-də Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Birinci Fəxri xiyabanda görkəmli hərbi və ictimai-siyasi xadim Akim Əli oğlu Abbasovun məzarını ziyarət edib, qarşısına çələng və gül dəstələri qoyublar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Ulu Öndər Heydər Əliyevin sevimli qəhrəmanları" silsiləsindən vətənpərvərlik tədbirləri çərçivəsində keçirilən anım mərasimində Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək unudulmaz sərkərdənin hər bir gənc üçün örnək olan mənalı ömür yolu və sərkərdəlik məharətindən danışıb, onunla bağlı xatirələrini bölüşüb.



Polkovnik A.Qurbani görkəmli xadimin hərbi xidmət illərindən söz açaraq A.Abbasovun Zaqafqaziya hərbi hazırlıq məktəbinin ilk məzunlarından olduğunu, azərbaycanlı gəncin güc və qüdrətini nümayiş etdirdiyini, diviziya komandiri vəzifəsinədək yüksəldiyini, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak etdiyini və üç çağırış Azərbaycan Ali Sovetinə deputat seçildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, A.Abbasov İkinci Dünya müharibəsinin ilk günlərindən Cənub-Qərb cəbhəsində döyüşlərə qatılıb, özünü gorxmaz, igid və şücaətli qəhrəman kimi göstərib. Qafqazın müdafiəsində 402-ci Azərbaycan atıcı diviziyasının alay komandiri kimi fərqlənib və qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlib.



Digər çıxış edənlər Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da artırılmasında ata və babalarımızın qəhrəmanlıq ənənələrinin, hərb tariximizin öyrənilməsinə, təbliğinə böyük əhəmiyyət verildiyini nəzərə çatdırıblar. Vurğulanıb ki, qəhrəmanlıq ənənələrimizi öyrənmədən, hərb tariximizi bilmədən yeni qəhrəmanlar yetişdirmək mümkün deyil. General Akim Abbasov kimi sərkərdələrin qəhrəmanlıq nümunələri Azərbaycanın müstəqilliyini qorumaqda, əbədi etməkdə bu gün də örnəkdir.

Generalın oğlu, Azərbaycanın Silahlı Qüvvələr veteranı, istefada olan polkovnik Asif Abbasov atasının xatirəsinin həmişə əziz tutulduğuna görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

# Stalinqrad döyüşündə qələbənin 81-ci ildönümü qeyd edilib



"İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov adına Böyük Qələbə Varislərinin Birliyi" Regional İctimai Təşkilat Moskvada Stalinqrad döyüşündə qələbənin 81-ci ildönümünə həsr olunmuş tədbir keçirib.

AZƏRTAC xəbər verir ki, tədbirdə İkinci Dünya müharibəsinin veteranları, Azərbaycanın Rusiyadakı səfirinin müşaviri Zaur Paşayev, Rusiya Liberal Demokrat Partiyasının Moskva bölməsinin sədri Yeqor Anisimov, Moskva vilayəti Azərbaycanlılarının regional milli-mədəni muxtariyyətinin sədri Elşən İbrahimov, Moskva vilayət Dumasının deputatı Tatyana Nikitas, veteran və ictimai təşkilatların təmsilçiləri, Azərbaycan diasporunun fəalları iştirak ediblər.

Çıxış edənlər İkinci Dünya müharibəsində qazanılan qələbənin əhəmiyyətindən danışıb, Həzi Aslanov və digər qəhrəmanların adlarının iki xalqın tarixinə qızıl hərflərlə həkk olunduğunu vurğulayıblar.



"İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov adına Böyük Qələbə Varislərinin Birliyi" Regional İctimai Təşkilatının sədri Əli Kazımov çıxışında qeyd edib ki, Azərbaycan da öz qəhrəmanlarının xatirəsini əziz tutur. Azərbaycan xalqı müdafiə fonduna 17 milyon rubl dəyərində şəxsi əmanət toplayıb, bu pullarla tanklar əldə olunub, təyyarə eskadrilyası tikilib. Bakının hər bir neft zavodunda belə şüar asılmışdı: "Bizim Stalinqradımız hər bir quyudadır!". 1500-ə yaxın azərbaycanlı Stalinqradın müdafiəsinə görə mükafatlara layiq görülüb", - deyə Ə.Kazımov əlavə edib.

*Medallı igidlərimiz*

# Vətənpərvərlik döyüş ruhudur...

Hərb sənəti bütün dövrlərdə şərəfli, digər peşələrdən üstün sayılıb. Bu sənət sahibləri müqəddəs Vətən torpaqlarını müdafiə edərək düşmənlərdən qoruyurlar. Min illərdi bu meyarlar davam edir. Böyük tarixi şəxsiyyət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də Vətən müdafiəçilərinə yüksək qiymət verirdi: "Bu peşəni seçənlərə xalqımız həmişə minnətdar olacaq". Böyük tarixi şəxsiyyət azərbaycanlı gənclərin Vətənə və xalqa daha çox gərəkli olan hərb sənətinə yiyələnmələri üçün yüksək mühüm işlər görmüşdü. Hələ sovet dönəmində gənclərin başqa respublikaların hərbi məktəblərində təhsil almaları məsələsi də diqqətdən kənar qalmamışdı. Dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra Ulu Öndər ölkəmizdə hərbi təhsilin də əsasını formalaşdırmışdı.

Ulu Öndərin böyük diqqət və qayğısı gənclərdə hərbi peşələrə maraq hissini artırmışdı. Onlar peşə seçərkən hərbi sahəyə üstünlük verirdilər.

Nicat Abdulhüseynov zabit olmağı yeniyetməlik çağlarından qərara alıb. Qəhrəmanlar, sərkərdələr haqqında müxtəlif kitablar oxuyub, sənədli filmlərə baxıb.

Nicat Abdulhüseynov qədim Şamaxının Bağırlı kəndindəndir. 1991-ci ildə onun da yaxınları, doğmaları Vətən uğrunda döyüşlərdə iştirak ediblər. Bu da Nicatda hərbi sahəyə maraq yaradıb. Nicat Bağırlı kəndinin şəhidi Faiq Şıxəliyevin adını daşıyan orta məktəbdə təhsil alıb, əlaçı şagirdlərdən olub. 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olunub. Təcrübəli zabitlərdən kursant kimi hərb sənətini öyrənib. Söhbətimiz zamanı Nicat, "Həyatımın ən unudulmaz, yaddaqalan günü "leytenant" hərbi rütbəsi aldığım gündür", - dedi.



Nicat o vaxt ön xətdə yerləşən "N" hərbi hissəsində zabit kimi xidmətə başlayıb. Şəxsi heyətin döyüş, mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi üçün bilik və bacarığını əsirgəməyib. Çox keçməyib ki, komandiri olduğu taqımın əsgərləri döyüş hazırlığı üzrə təlim və məşqlərdə ön sıralarda olub. Komandanlıq gənc zabiti fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görüb.

Gənc zabit mütəmadi olaraq şəxsi heyətlə Vətən uğrunda canından, qanından keçən qəhrəmanlar haqqında söhbətlər aparır, hər bir əsgəri onların layiqli davamçısı olmağa ruhlandırırdı. Məram, məqsəd heç vaxt dəyişmir. Necə olursa-olsun, Vətənin ərazi bütövlüyünü, suverenliyini təmin etmək əsgərlərin həmişə müqəddəs vəzifəsi sayılıb. Nicat Abdulhüseynov həmişə xidmətini bu istəklə davam etdirib. Ayrı-ayrı hərbi hissələrdə xidmət etsə də, ona göstərilən etimadı həmişə doğrultmaq üçün səylə çalışıb. Komandirlik etdiyi şəxsi heyət döyüş tapşırıqlarına müntəzəm əməl edib. Onu bölmə komandiri vəzifəsinə təyin ediblər. Düşmənlə təmas xəttində xidmət edən zabit şəxsi heyətin döyüş ruhunun yüksəldilməsi üçün daha çox səy göstərib.

Vətən müharibəsi başlayanda onun rəhbərlik etdiyi tabor Murovdağ istiqamətində döyüşlərə cəlb olunub. Tabor düşmənin xeyli sayda texnikasını, canlı qüvvəsini məhv edib, döyüş tapşırıqlarını yerinə yetirib. Sonra Cəbrayıl, Füzuli bölgələrində də döyüşlərdə fəal iştirak edib, torpaqlarımızın işğaldan azad edilməsində düşmən səngərlərini yararaq onlara sarsıdıcı zərbə vuranların sırasında olub. Göstərdiyi igidliyə görə Nicat Abdulhüseynov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Mayor Nicat Abdulhüseynovun xidmətini davam etdirdiyi "N" hərbi hissəsi lokal əməliyyat tədbirlərində də iştirak edib.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi təşkilatlarda hesabat seçki yığıncaqları keçirir





Müdafiə Nazirliyinin hərbi hissələrində, idarə və müəssisələrində Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Zakir Müslümovun rəhbərliyi ilə yerli həmkarlar təşkilatlarında hesabat seçki yığıncaqları davam edir. "N" hərbi hissəsində həmkarlar ittifaqının üzvləri ilə keçirilən toplantıda əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə tədbir açıq elan olundu.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədr müavini İxtiyar İsayev ötən il komitə tərəfindən görülən işlərlə bağlı hesabat məruzə ilə çıxış etdi. Natiq təşkilat üzvlərinin hüquqlarının müdafiəsi istiqamətində görülən işlərdən, ayrı-ayrı təşkilatlarda çalışan aztəminatlı ailələrə edilən yardımlardan, həmçinin həmkar üzvlərinin sanatoriya və istirahət evlərinə göndərilməsinin təmin edildiyini xüsusi olaraq vurğuladı. Bunun üçün təşkilatlarda çalışan həmkarlar təşkilatları sədrlərinin fəaliyyətlərini müsbət qiymətləndirdi.

İxtiyar İsayev Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin rəhbərliyinin iştirakı ilə hesabat seçki yığıncaqlarının keçirilməsinin vacibliyindən də söz açdı. Cari ildə keçirilən seçki yığıncaqlarında toplantı iştirakçılarının təşəbbüsü ilə növbəti illər üçün təşkilatlara yeni sədrlərin, müavinlərin və üzvlərin seçilməsində bilavasitə iştirakı komitənin fəaliyyətinin şəffaflığının təmin edilməsində mühüm rol olduğunu bildirdi.

Həmkarlar ittifaqı üzvlərinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində hesabat seçki yığıncaqlarının mühüm əhəmiyyət kəsb etdiyini və digər təşkilatlarda da seçkilərin keçirilməsinin nəzərdə tutulduğunu vurğuladı. Tədbirdə İxtiyar İsayev həmkarlar təşkilatının üzvlərini maraqlandıran suallara cavab verdi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Bu il 3 mindən çox şəxs Memorial Soyqırımı Muzeyini ziyarət edib






Xalqımıza qarşı tarix boyu törədilən sülh və insanlıq əleyhinə cinayətlər - deportasiyalar, soyqırımlar, o cümlədən Xocalı soyqırımı, həmçinin terrorlar, eləcə də digər dəhşətli cinayətlər barədə insanlara səhih və dolğun məlumatlar əldə etmək imkanını yaratmaq və həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyi yaradılıb.

Bu barədə AZƏRTAC-a Hərbi prokurorun böyük köməkçisi, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev muzey haqqında məlumat verərkən deyib. Muzeyin yaranma tarixindən danışan F.Əliyev qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanından və Prezident İlham Əliyevin 2012-ci il 17 yanvar tarixli "Xocalı soyqırımının 20-ci ildönümü haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev həmin muzeyin yaradılması ilə əlaqədar aidiyyəti üzrə məsələ qaldırıb. Baş Prokurorluq üzrə verilmiş 2013-cü il 19 iyun tarixli müvafiq əmrə əsasən, Hərbi prokurorun Sərəncamı ilə işçi qrupu yaradılıb. İşçi qrupu tərəfindən qısa müddətdə toplanmış zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında Memorial Soyqırımı Muzeyi ərsəyə gətirilib. Muzey XX əsrin əvvəllərindən bəri erməni silahlı dəstələrinin torpaqlarımızda həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan minlərlə azərbaycanlının xatirəsinə həsr edilib".

Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri ölkəmizdə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində dünya ictimaiyyətinin XX əsrin ən dəhşətli hadisələrindən biri olan Xocalı soyqırımı barədə ətraflı məlumatlara malik olduğunu bildirib: "Bir neçə ölkə artıq rəsmi şəkildə bu faciəni soyqırımı kimi tanıyıb. Ancaq Hərbi Prokurorluq çalışır ki, muzeyi ziyarət edənlərin sayı daha çox olsun. Muzeyin açılışı 2014-cü il fevralın 24-də olub. Muzey özündə tarixi həqiqətləri əks etdirən rəsmi sənədləri və əşyaları cəmləşdirib. Tarix, deportasiya-repressiya, soyqırımı və terror adlı dörd bölmədən ibarət olmaqla, 320 kvadratmetr sahəni əhatə edir. Muzey ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərin dünyada tanıdılması istiqamətində mühüm əhəmiyyət kəsb edir. Girişdə asılmış rəsm əsərləri ürəkləri parçalayan şiddətli ağrıları təcəssüm etdirməklə yanaşı, soyqırımı qurbanlarının matəm sükutunu özündə əks etdirir. "Xocalı fəryadı" adlı rəsm əsəri buna əyani sübutdur. Muzey xalqımıza qarşı törədilmiş soyqırımı, deportasiya, hərbi cinayətlər barədə xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin ədəbiyyat fondu ilə təchiz olunub. Bütün bölmələrdə məlumat mərkəzi quraşdırılıb. Həmçinin muzeyin girişində Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar 2012-ci il fevralın 26-da Prezident İlham Əliyevin rəhbərliyi ilə 100 mindən çox insanın Xətai rayonunda ucaldılmış "Ana fəryadı" abidəsinə keçirilmiş yürüşünün irihəcmli fotoşəkli yerləşdirilib".

Muzeyin bölmələri haqqında ətraflı məlumat verən F.Əliyev qeyd edib ki, tarix və deportasiya-repressiya bölmələrində XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif ərazilərinin dağıdılıb viranə qoyulmuş görüntüləri, əhalinin həyat tərzi haqqında fotolar var: "Burada quraşdırılan sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı ölkəmizin müxtəlif bölgələrində törətdikləri soyqırımları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür. Burada azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinin ifşa olunaraq dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin gördükləri işlərin və imzaladıqları sərəncamların nümayiş etdirildiyi guşə də yaradılıb. Həmçinin muzeydə Quba, Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında ermənilərin törətdikləri vəhşiliklər haqqında dolğun məlumat var. Bu guşədə qəzaların əhalisi, müsəlman qırğınları üzrə Fövqəladə Təhqiqat Komissiyasının sənədləri, Rusiya imperiyası və İran dövləti arasında bağlanmış və Azərbaycanı ikiyə bölən Gülüstan və Türkmənçay müqavilələri, "Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasətinin deportasiya və sürgün mərhələsi" kompozisiyası, 1930-cu illərdə repressiya qurbanı olmuş Azərbaycan ziyalıları və görkəmli şəxsiyyətləri haqqında cinayət işlərindən götürülmüş fraqmentlər, azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından son deportasiyasının fotoşəkilləri sərgilənir".

Baş ədliyyə müşaviri söyləyib ki, muzeyin soyqırımı və terror bölmələrində erməni silahlı birləşmələri və keçmiş sovet ordusunun 366-cı alayının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə birgə hücumunun maket və fotoları, habelə digər eksponatlar yerləşdirilib. Həmin bölmələrdə 1992-ci il fevralın 26-da Xocalını və ətraf əraziləri özündə əks etdirən 1:7500 miqyasında maket qurulub. Hərbi Prokurorluğun apardığı ibtidai istintaq materiallarına uyğun olaraq hücum zamanı erməni silahlı birləşmələri və 366-cı alayın bölmələrinin yerləşdiyi ərazilər və onlar tərəfindən xüsusi amansızlıqla kütləvi qətlə yetirilmiş dinc əhalinin meyitlərinin olduğu yerlər də maketdə əksini tapıb.

Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri deyib ki, muzey Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət edir: "Tariximizi obyektiv şəkildə araşdırmaq, bu faktları gələcək nəsillərə olduğu kimi çatdırmaq və əcnəbiləri məlumatlandırmaq önəmlidir. Odur ki, muzeyi həm Azərbaycan vətəndaşları, həm də xarici vətəndaşlar ziyarət edirlər. Bu da vətəndaşlarımızda, xüsusən də yeniyetmələrdə və gənclərdə vətənpərvərlik hisslərinin dərindən aşılanmasında və onlarda milli ruhun yüksəldilməsində, eləcə də əcnəbilər vasitəsilə tarixi reallıqların dünyaya yayılmasında böyük əhəmiyyət kəsb edir. Yarandığı vaxtdan bu günə qədər muzeyi 35 min nəfərə yaxın şəxs, bu il ərzində isə 3 mindən çox şəxs ziyarət edib. Azərbaycanın tarixi barədə dünya əhalisini məlumatlandırmaq hər bir azərbaycanlının müqəddəs borcudur. Xüsusən də yaxın keçmişdə, Vətən müharibəsi zamanı Azərbaycanın haqq mübarizəsindəki şanlı Qələbəsi, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbçilərimizin yazdığı şərəfli tarix, xalqımızın nümayiş etdirdiyi əzmkarlıq haqqında beynəlxalq ictimaiyyəti maarifləndirmək bütün həmvətənlərimizin vəzifəsidir".

F.Əliyev sonda vurğulayıb ki, muzeyi ziyarət etmək ödənişsizdir. Odur ki, tariximiz haqqında obyektiv məlumatları özündə əks etdirən məkanı ziyarət etmək hər kəsə tövsiyə edilir.

# Hakim - Azərbaycan xalqıdır!..

Tarix heç nəyi unutmur...

Tarixdə heç nə unudulmur. Uzaq tarixlər də yaşadılır, yaxın tarixlər də. Yaxın tarixlər daha həssaslıqla xatırlanır. Ötən əsrin sonları təkcə tarixi sənədlərdə, kitablarda deyil, yaddaşlarda da yaşadılır. Bugünkü nəsillər oxuduqlarından da öyrənirlər, xatirələrdən də. 90-cı illərdə Azərbaycanda genişlənən milli-azadlıq hərəkatı da belədi, 1990-cı ilin 20 Yanvar faciəsi də, Qarakilsə kəndi üzərində vertolyotun vurulması da, Başlıbel, Qaradağlı, Ağdaban, Malıbəyli, Meşəli, ... faciələri də. Ermənilər müharibələr tarixində törədilməmiş vəhşiliklər törədirdilər. 1992-ci ilin fevralı, tarix olaraq 25-dən 26-na keçən gecə Ermənistan dövləti (bəli, Ermənistan dövləti! Xarici siyasəti işğal üzərində qurulmuş işğalçı Ermənistan! Ermənilik xarakteri ilə buqələmun dövlətçiliyini davam etdirən dövlət!) şəhərləşən Xocalıda dislokasiya yeri Xankəndi olan 366-cı alayın döyüş texnikalarının, erməni əsilli hərbi qulluqçularının iştirakı ilə soyqırımı həyata keçirdi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev XX əsrin bu faciəsi haqqında deyib: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Xocalı faciəsi Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır vəhşiliyin görünməmiş təzahürüdür"...



Xocalı faciəsi haqqında "N" hərbi hissəsində xidmət edən əsgərlər də ürək ağrısı ilə danışdılar. 32 il əvvəlin dəhşətləri ilə bağlı bildiklərini dilə gətirdilər. Səslərindəki qəhəri qürur əvəzləyirdi. 32 il əvvəl törədilmiş dəhşətlərdən də danışdılar, tarixi Zəfərin davamı olan döyüşlərdən də. Yadımıza düşür ki, İkinci Qarabağ müharibəsindən əvvəl ön xətdə, səngərdə əsgərlərin biri demişdi: "Torpaqlarımızın işğaldan azad edilməsi, ermənilərin törətdiklərindən qisasın alınması ömrümüzün mənəvi mərhələsi olacaq". Əsgərlər 32 il əvvəl törədilmişləri də xatırlatdılar, 5 ay əvvəl tarixi Zəfərin tarixi nəticəsini də: Əsgəranın, Ağdərənin, Xocalının, Xankəndinin işğaldan azad edilməsini, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsini də...

**Leytenant Nihad Hüseynov:**

- Mən Heydər Əliyev adına Hərbi Liseyi, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirmişəm. Hərbi liseydə oxuyanda ədəbiyyat müəllimimizin tapşırığı ilə Xocalı faciəsindən inşa yazmışdıq. Onda müxtəlif mənbələri oxumuşdum. İndi yadımda qalan bəzi məqamları xatırlayıram.

SSRİ hökuməti Böyük Vətən müharibəsində Xatın kəndində törədilən faciəyə görə on illərlə müxtəlif siyasi tədbirlərdə, təbliğat vasitələrində faşizmi qınadı, ideologiyası zorxoş SSRİ-nin ideologiyası ilə düz gələn həmrəy dövlətləri də bu qınağa şərik olmağa çağırırdı. SSRİ dağıldı, onun sələfi olan dövlət Xocalı faciəsinə ciddi siyasi münasibət bildirmədi. Bu biganəliyə ittiham kimi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Xocalı faciəsini mənəvi haraya çevirdi: Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasına başlanıldı. Bu kampaniya bəşəri kampaniya kimi böyük təsirə malik oldu, Xocalı harayı dünyanın bir sıra ölkələrində eşidildi.

Kursant olanda məktəbimizdə Xocalıya həsr olunmuş bir tədbir keçirildi. Faciənin səbəblərindən danışılmışdı, faciədən danışılmışdı, qəddarlıqlardan danışılmışdı. Çıxış edənlərdən biri inamla kursantlara baxmışdı, inamla da demişdi: Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad etdi, Əsgəranın, Ağdərənin, Xocalının, Xankəndinin azad edilməsi uğrunda döyüşlərdə siz də iştirak edəcəksiniz. Siz də qalib ordunun zabiti olmağınızla qürurlanacaqsınız. Hərbi And içəndə müəllimimizin dediklərini xatırladıq. Hərbi And içməyimizə sevinirdik, qoşunlarda xidmətə gedəcəyimizə sevinirdik. Bir də işğaldan tam qurtuluş döyüşlərinin iştirakçısı olacağımıza sevinirdik. 2023-cü il sentyabrın 20-də Əsgəran, Ağdərə, Xankəndi kimi, Xocalı da işğaldan azad edildi. Bu qələbə Azərbaycanın ərazi bütövlüyünün tam bərpası oldu. Xocalı da işğaldan qurtardı, Xocalıda da Azərbaycan bayrağı dalğalanır. Azərbaycan Ordusunun zabiti olmağın qürurunu yaşayıram. Bir zabit olaraq əsgərlərə də bu qürurun dönməzliyindən söz açıram. Xidmətimlə qürurlandığım kimi, əsgərlərimizin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsindən də qürurlanıram. Asudə vaxtda əsgər Ayxan Mirəliyev xalq şairi Zəlimxan Yaqubun "Xocalı" şeirini dedi. Onu da dedi ki, kaş Xocalının işğaldan qurtuluşuna da belə bir duyğusal şeir yazılaydı. Yazılacaq, əminəm ki, həmin şeir yazılacaq...



**Əsgər Nicat Yüzbəyov:**

- Orta məktəbdə oxuyanda Xocalı faciəsi haqqında televiziyadan da izləmişdik, kitablardan da oxumuşduq, müəllimlərimizdən, valideynlərimizdən də eşitmişdik. Onda biz də qəhərlənirdik. Bilirdik ki, qisas qiyamətə qalmır. Azərbaycan Ordusunun güclü olduğunu bilirdik. Onun beynəlxalq təlimlərdə də iştirakını maraqla izləyirdik. Çağırış yaşına çatanda bu ordunun əsgəri olacaqdıq. Bir dəfə sinif yoldaşlarımdan biri tarix müəllimimizdən soruşdu ki, dünyada belə qəddar vəhşilik olubmu? Müəllimimiz Böyük Vətən müharibəsindən, Vyetnam müharibəsindən danışmışdı, Əfqanıstan müharibəsindən, İran-İraq müharibəsindən faktlar demişdi. Xocalıda törədilənlərin bütün faciələrdən qəddarlığı ilə seçildiyini bildirmişdi, bizə bir xarici jurnalda dərc olunmuş informasiyanı da xatırlatmışdı: "Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz". Bəşəri dövlətlər bu vəhşiliyi pislədi, Ermənistanı törətdiklərinə görə bütün dövlətlərin qınamasını tələb etdilər. Ermənistan qınandı, ancaq bu qınaq ciddi qınaq olmadı.

Televiziya verilişlərindən birində Xocalı uğrunda gedən döyüşlər haqqında danışırdılar. Bu döyüşlər Azərbaycan əsgərinin, əli silah tutan xocalıların müdafiə döyüşləri idi. Bu döyüşlər xocalıların timsalında xalqın torpaq, Vətən sevgisinin döyüşləri idi. Hamısı qəhrəmanlıqla döyüşmüşdü.

Xocalı şəhərini tərk edən əhali pusquya salınıb və Naxçıvanik, Pircamal kəndləri yaxınlığında erməni hərbi postlarında atəşə tutularaq qətlə yetirilib, əsir götürülüb. Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın yerlərə çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd edib. Qadınlar, uşaqlar, yaşlılar dağlara üz tutub, güman edirdilər ki, dağ yolları onları ölümün içindən çıxarda bilər. Belə olmayıb. Qaçanların çoxu çöldə-düzdə, dağlıqlarda yol gedəndə soyuqdan, şaxtadan donub.



Atam bir hadisə danışmışdı. Ata anasız yeniyetmə qızını bir tərəfə çıxardıb döyüşə qayıdacaqmış. Qarqar çayına çatanda ermənilərin yaxınlaşdığını görüb. Bir anlığa, tək bircə anlığa göy üzünə baxıb. Sonra qızını bağrına basıb. Dalbadal iki güllə atıb. Birini qızına, birini özünə. Qızının namusunu qoruyan ata özünü əsirliyin mənəvi və fiziki əzablarından bir güllə ilə xilas edib...

Bu gün o atanın da, o atanın qızının da ruhu narahatlıqdan qurtarıb. Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-da Xocalını işğaldan azad etdi. Tarixi Zəfər qazanılanda şagird idik, bu qələbə qazanılanda əsgər. Xocalının işğaldan azad edilməsi döyüşlərində iştirak edən əsgər yoldaşlarımızın döyüş təəssüratlarını maraqla, qürurla dinləyirik. Bir daha əmin oluruq ki, ordumuz güclüdür, qüdrətlidir. Belə bir ordunun əsgəri olmağımızla biz də qürurlanırıq.

**Əsgər Elşad Ömərov:**

- Xocalı faciəsindən 32 il keçir. Bu 32 ildə hər il Xocalı faciəsi haqqında danışılıb, faciə gecəsi törədilənlər xatırladılıb. Bu xatırlatmaları biz uşaqlığımızda da eşitmişik, yeniyetməliyimizdə də. Eşidirdik və çarəsizlikə yerə baxırdıq. Bu haqda müəllimimizə də demişdim: Əlimizdən heç nə gəlmir, müəllim, utanırıq. Onda müəllimimiz dedi ki, böyüyəcəksiniz, hərbi xidmətə çağırılacaqsınız, əsgər olacaqsınız və Xocalının qisasını alanlardan olacaqsınız. İndi əsgərik. Vətən müharibəsində qazanılan tarixi Zəfər bizim də qələbə ruhumuzu kükrətmişdi. Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunacağına biz də inanırdıq. Bunun icraçısı olacaqdıq. 2023-cü ilin sentyabr döyüşləri başladı və bir günün içində başa çatdı. Bizim hərbi hissə iştirak etsə də, biz döyüşlərə cəlb olunmadıq. Əsgər yoldaşlarımızın da qələbə ilə bitən döyüşlərdə iştirakından biz də qürurlandıq. Döyüşlərdən sonra tərxis edilmiş əsgər yoldaşlarımızdan biri deyib: Qələbədən sonra Xocalıya daxil olanda bir anlığa ayaq saxladıq, 32 il əvvəl burada qətlə yetirilənləri xatırladıq. Bizə elə gəldi ki, hərbçi olaraq, əsgər olaraq, azərbaycanlı olaraq mənəvi borcumuzu yerinə yetirmişik. Bu qələbəni qazanmış ordumuzun bütün şəxsi heyətinə minnətdarlıqla göy üzünə baxdıq...



Həmin əsgərin dedikləri bizə böyük mənəvi qürur verdi, bizdən sonra xidmətə gələcək gənclərə də böyük mənəvi qürur verəcək.

Yaddaşımda qalıb ki, bu faciədə Ermənistan dövlətinin silahlı birləşmələrinin hərbi qulluqçuları 613 nəfəri qətlə yetirib, bunlardan 106-sı qadın, 63-ü azyaşlı uşaq, 70-i yaşlı insan olub, 1275 sakin girov götürülüb, 150 nəfərin taleyi bu günədək naməlum qalıb. Şəhər tamamilə dağıdılıb. 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, diri-diri yandırılıb, boynu vurulub, gözləri çıxardılıb.

Biz bunları da xatırlayırıq, erməni separatçıları ilə birləşmiş Ermənistan silahlı qüvvələrinin dağılmış ordusunun müqavimət döyüşlərini də, saatlar çəkən döyüşlərdən sonra təslim olmalarını da, Əsgəranda, Ağdərədə, Xocalıda, Xankəndidə dalğalanan Azərbaycan bayraqlarını da. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən il oktyabrın 15-də Xocalıda Azərbaycan bayrağını dalğalandırdı. Bu, Xocalı nisgilini, Xocalı ağrı-acısını azaltdı. Xocalı yaralarını qaysaqlandırdı...

**Əsgər Ayxan Mirzəbəyli:**

- Xocalı faciəsindən 32 il keçir. O tarixi biz qəhərlə, acılarla xatırlayırıq. Xocalının işğaldan azad edilməsindən 5 ay keçir. Bu tarixi isə qürurla xatırlayırıq. Ona da qürurlanırıq ki, həmin döyüşlərin iştirakçısı olmuş əsgərlərlə nəfəs-nəfəsə xidmət edirik. Xocalı faciəsi haqqında məlumatlarımız vardı, verilişlərə baxmışdıq, kitablardan, qəzetlərdən oxumuşduq, müəllimlərimizdən eşitmişdik. Məktəbimizdə keçirilən anım tədbirində o faciəni görənlərin təəssüratlarını dinləmişdik. Bizim də yumruqlarımız düyünlənmişdi. Onda keçirdiyimiz hissləri duyan müəllimimiz demişdi: Böyüyəcəksiniz, əsgər olacaqsınız, Vətənə borcunuzu ödəyəcəksiniz, ordumuzun işğaldan azad etdiyi ərazilərdə xidmət edəcəksiniz. Onda hiss edəcəksiniz ki, torpaqlarımızın yaraları qaysaqlayır. Bu gün müəllimimizin dediklərini duyuram. Duyuram ki, Xocalıda da torpaqlarımızın yaraları qaysaqlayır. Xidmətim müddətində mənim iradəmdən asılı olmayacaq, ancaq tərxis edildikdən sonra Xocalıya da gedəcəm. Azərbaycan əsgərinin qəhrəmanlıqlarının şahidi olmuş dağlara bir təmas borcum var...

Xocalı faciəsi "Mən azərbaycanlıyam!" deyənlərin də, Azərbaycanı sevənlərin də ruhunu titrətmişdi. Bu səviyyədə faciə nə yaddaşlardan silinər, nə də tarixdən. Xatırlana-xatırlana yaşadılan hadisələr də tarixləşir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş soyqırımı da, bəşəri cinayət də.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xocalı faciəsini XX əsrin ən böyük cinayətlərindən biri adlandıraraq demişdi: "Əfsuslar olsun ki, bu cinayəti törədənlər hələ ədalət qarşısında cavab verməyiblər, amma o gün gələcəkdir". Bu fikir İkinci Qarabağ müharibəsindən əvvəl deyilmişdi. O gün 2023-cü il sentyabrın 19-da əməliyyat tədbirlərində gəldi. Xocalı faciəsinin təşkilatçıları, icraçıları ittiham olunurlar.

Ədalətin bərpasına nail olan hakim isə Azərbaycan xalqıdır!..

**Mayor**
**Ceyhun CƏFƏRLİ,**
**kapitan**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

## XTQ-nin hissə və bölmələri xüsusi əməliyyatların icrası üzrə tapşırıqları yerinə yetiriblər

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi cari il üçün hazırlıq planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hissə və bölmələri ilə "Dərin qar və şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda keçirilən taktiki-xüsusi təlimlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yüksək dağlıq ərazidə xizəklə taktiki yerdəyişmə fəaliyyətlərini icra edən xüsusi təyinatlılar qarlı ərazidə qayaların və maneələrin keçilməsi, yaralanan hərbi qulluqçuya ilkin tibbi yardımın göstərilməsi və çətin keçilən ərazilər üçün nəzərdə tutulmuş daşıma vasitələri ilə təxliyəsi, eləcə də xüsusi əməliyyatların icrası üzrə digər tapşırıqları yerinə yetiriblər.



Taktiki-xüsusi təlimdə xüsusi təyinatlılar peşəkarlıq nümayiş etdiriblər.

## Ombudsman Aparatının nümayəndələri "N" hərbi hissəsində olublar





*Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında imzalanan 2024-cü il üçün birgə tədbirlər planına əsasən, aparatın nümayəndələri "N" hərbi hissəsində olublar.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, nümayəndə heyəti hərbi hissənin ərazisindəki əsgər yataqxanası, yeməkxana, avtomobil parkı və digər obyektlərə baxış keçirib, şəxsi heyət üçün yaradılan şəraitlə tanış olublar.

Qonaqlar, həmçinin tibb məntəqəsində müalicə alan hərbi qulluqçuların sağlamlıq durumları, o cümlədən tibbi xidmətlə də maraqlanıblar.

Hərbi qulluqçularla keçirilən görüşdə onların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi və digər mövzularda fikir mübadiləsi aparılıb, şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

Aparatın nümayəndələri hərbi hissədə yaradılan şəraiti, hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətini, eləcə də ideoloji işlə bağlı icra edilən tədbirləri müsbət qiymətləndiriblər.

Sonda Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə hərbi hissənin ərazisində müxtəlif növ ağaclar əkilib.

## PUA bölmələri ilə keçirilən təlim-məşq uçuşları davam etdirilir

Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) pilotsuz uçuş aparatları (PUA) bölmələri ilə keçirilən təlim-məşq uçuşları davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim-məşq uçuşlarından əvvəl heyətlər tərəfindən PUA-ların döyüşə hazırolma vəziyyətinə gətirilməsi üzrə fəaliyyətlər icra olunub.

Əvvəlcədən müəyyən edilmiş marşrutlar üzrə silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-ları tərəfindən hava kəşfiyyatının aparılması, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin olunması, eləcə də digər tapşırıqlar yerinə yetirilib.



Döyüş hazırlığının yüksək səviyyədə saxlanması və heyət üzvlərinin fərdi bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə PUA heyətləri qarşıya qoyulan bütün tapşırıqları yüksək peşəkarlıqla icra ediblər.

## Ermənistanın dezinformasiya maşını fəaliyyətini davam etdirir

Ermənistanın dövlət strukturlarına bağlı bəzi sosial media kanalları Laçın istiqamətində guya bu gün səhər saatlarında baş vermiş hadisə ilə bağlı qeyri-peşəkar şəkildə montaj olunmuş, dezinformasiya xarakterli video paylaşıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təqdim olunan videonun metaməlumatlarının tədqiqi və aparılan qısa araşdırma nəticəsində müəyyən edilib ki, fərqli zamanda və fərqli coğrafi məkanda çəkilmiş videogörüntülərin bugünkü hadisə ilə heç bir əlaqəsi yoxdur.

## "Akıncı" Azərbaycanın müdafiə qabiliyyətinin artmasına daha bir töhfədir

Ermənistan ilə davamlı sülhün hələ də bərqərar olmadığı şəraitdə Azərbaycan Ordusu öz arsenalına ölkənin müdafiə qabiliyyətinin artmasına töhfə olan daha bir mühüm silah - "Akıncı" hücum PUA-larını əlavə edib.

AZƏRTAC xəbər verir ki, bu barədə ərəb ölkələrinin ortaq "Defense-arabic" portalında dərc olunmuş məqaləsində mərakeşli hərbi ekspert Nur Əl-Din yazıb.

Hərbi ekspert əlavə edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkənin Hərbi Hava Qüvvələrinin obyektlərində uçuşunu izlədiyi "Akıncı" hücum PUA-ları 150 kilometrə qədər mənzilli və səsdən sürətli TRG-230-İHA "hava-yer" tipli ballistik raketləri hədəfə buraxa bilir.

Məqalədə diqqətə çatdırılıb ki, Azərbaycan Ordusu i yeni "Akıncı" pilotsuz təyyarələri üçün təlim obyekti və anqarlar açıb. Anqarlar müxtəlif tipli pilotsuz uçuş aparatları, eləcə də silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-sı və digər aviasiya-texniki vasitələrin saxlanılması üçün nəzərdə tutulub.

Hərbi ekspert qeyd edib ki, Prezident İlham Əliyev "Akıncı" PUA-sı ilə yanaşı, Türkiyədən alınmış çoxməqsədli aviabombalar, o cümlədən lazerlə idarə olunan MAM-T bombaları və "Roketsan" şirkətinin istehsalı olan SOM qanadlı raketləri kimi müxtəlif havadan buraxılan silahlara da baxış keçirib.

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə F-16 ilə bağlı ABŞ-dan təkliflər alıb



Türkiyə öz hava donanması üçün dördüncü nəsil F-16 hərbi təyyarələrinin tədarükü və modernləşdirilməsi ilə bağlı təkliflərlə bağlı ABŞ-dan məktub alıb.

Bu barədə cümə axşamı Türkiyə Milli Müdafiə Nazirliyindəki mənbələr məlumat verib.

Söhbət Ankaraya 40 ədəd "F-16 Blok-70" təyyarəsinin satışından, Türkiyə Hərbi Hava Qüvvələrində artıq xidmətdə olan 79 ədəd F-16-nın modernləşdirilməsindən, eləcə də aviasiya sursatları partiyasının tədarükündən gedir.

Türkiyə Milli Müdafiə Nazirliyi bildirib ki, hazırda Birləşmiş Ştatların təklifi öyrənilir, bundan sonra tərəflər arasında sazişin yekun mətni üzərində müzakirələr başlanacaq.

Ankara əlavə edib ki, Türkiyə tərəfi ölkənin daxilində hava qüvvələri donanmasının modernləşdirilməsinin tərəfdarıdır.

Nazirlik Ankaranın dördüncü nəsil "Eurofihgter" təyyarələrinə marağını təsdiqləyib və bu məsələnin Türkiyənin milli müdafiə naziri Yaşar Gülərin Böyük Britaniyaya səfəri zamanı müzakirə edildiyini qeyd edib.

Almaniya da daxil olmaqla, "Eurofihgter" prosesində iştirak edən digər Avropa ölkələrinin Türkiyənin marağına müsbət münasibət bildirəcəyinə ümid edilir.

### Putin: Rusiya tezliklə "Sarmat" raketlərini nümayiş etdirəcək



Rusiya tezliklə "Sarmat" raketlərini operativ yerləşdirmə rayonlarında nümayiş etdirəcək.

Bu barədə Rusiya Prezidenti Vladimir Putin Federal Məclisə müraciəti əsnasında bildirib.

O qeyd edib ki, Rusiyanın müdafiə sektorunun inkişafı ilə bağlı əvvəlki bütün planlar yerinə yetirilib. Xüsusi əməliyyat zonasında "Kinjal" kompleksindən səmərəli istifadə olunur, "Burevestnik" qanadlı raketinin və "Poseydon" sisteminin sınaqları tamamlanır.

Putin "Sarmat" raketlərinin artıq qoşunlara çatdırıldığını vurğulayıb.

### Pakistanda təhlükəsizlik qüvvələri ilə toqquşmada altı silahlı öldürülüb



Pakistanın şimal-qərbindəki Hayber-Paxtunxva əyalətində təhlükəsizlik qüvvələri ilə toqquşma nəticəsində altı silahlı şəxs öldürülüb.

Pakistan ordusunun media mənbəyi olan xidmətlərarası ictimai əlaqələr bölməsinin açıqlamasında, təhlükəsizlik qüvvələrinin vilayətin Şimali Vəziristan rayonunda kəşfiyyat xarakterli əməliyyatın keçirdiyi bildirilib.

Məlumatda, həmçinin əməliyyatın gedişində təhlükəsizlik qüvvələrinin bir hərbçisinin yaralandığı, çox sayda silah, sursat və partlayıcı qurğunun aşkarlandığı qeyd olunub.

### Polşada NATO-nun genişmiqyaslı təlimləri başlayır



Polşada digər ölkələrin silahlı qüvvələrinin iştirakı ilə "Dragon-24" milli təlimləri başlayır. Bu barədə Polşa Ordusunun Baş Qərargahı bildirib.

Təlimlərdə 10 NATO ölkəsindən 20 minə yaxın hərbi qulluqçu və 3,5 min hərbi texnika, o cümlədən Polşa Silahlı Qüvvələrinin 15 minə yaxın əsgəri iştirak edəcək. Quruda, havada və dənizdə qarşılıqlı fəaliyyət və döyüş tapşırıqlarının icrası yoxlanılacaq, kibermekanda hərbi əməliyyatların simulyasiyası aparılacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Abşeron rayonunda “Əsgərə məktub” layihəsi həyata keçirilib






Abşeron rayon Mədəniyyət Mərkəzində "Əsgərə məktub" layihəsi çərçivəsində "Zəfərə aparan yol" adlı tədbir təşkil olunub.

AZƏRTAC xəbər verir ki, iştirakçılar öncə Xırdalan şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək xatirəsini anıblar.

Abşeron rayon İcra Hakimiyyəti və Gəncə Qarnizonunun İdeoloji və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşan tədbirdə Mərkəzin foyesində müstəqillik dövründə çəkilmiş foto materiallar və müxtəlif səpkili kitablardan ibarət sərgilərlə tanışlıq olub.

Tədbirdə çıxış edən Abşeron rayon İcra Hakimiyyəti başçısının müavini Gülnar Rəhimova, YAP Abşeron rayon Təşkilatının sədri Abbas Əliyev, "N" hərbi hissəsinin zabiti Nemət Rəhimov, Abşeron rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri şəhid Elçin Həsənlinin anası Xatirə İsmayılova və başqaları Azərbaycan xalqının Ümummilli Liderinin dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və suverenliyimiz uğrunda apardığı mübarizədən, məqsədyönlü siyasətindən söhbət açıb, Azərbaycan xalqının əldə etdiyi Zəfərdən danışıblar. Bildirilib ki, 44 günlük Vətən müharibəsində xalqımız torpaqlarını işğaldan azad etməklə tarixinin ən şərəfli səhifəsini yazıb. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iradəsi, ordumuzun qüdrəti və xalqımızın sarsılmaz birliyi qarşısında düşmən məğlub olub.




Çıxışlardan sonra iştirakçılar Azərbaycan Ordusu sıralarında xidmət edən əsgərlərə məktub vasitəsilə ürək sözlərini yazıblar.

Aksiya müddətində Abşeron rayonunda məktəblilər, təşkilatlar və sakinlər tərəfindən toplanan 5000-dək elmi, publisistik, bədii və digər janrlarda olan kitab və yazılan məktublar işğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgərlərə çatdırılacaq.

# Əlahiddə Ümumqoşun Orduda hərbi qulluqçular arasında daşqaldırma birinciliyi keçirilib





*Yarışdan əvvəl çıxış edən Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik-leytenant Vahid Məmmədov bildirib ki, mütəmadi idmanla məşğul olan hərbi qulluqçu daha dözümlü, yüksək əhval-ruhiyyədə olur, verilən tapşırıqları daha çevik və dəqiq yerinə yetirir. Bu səbəbdən də ordumuzda şəxsi heyətin fiziki hazırlığına xüsusi diqqət yetirilir. "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır!" devizi altında müxtəlif idman yarışları keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, polkovnik-leytenant Vahid Məmmədov birinciliyin keçirilməsi və təhlükəsizlik qaydaları haqqında məlumat verdikdən sonra yarışa start verilib.

13 komandadan 78 idmançının 6 çəki dərəcəsində mübarizə apardığı daşqaldırma yarışları birdən və təkanla qaldırma üzrə keçirilib.

Fərdi və komanda halında qaliblər hər iki növ çalışmada yığılmış xallara əsasən müəyyən edilib. Yekun nəticələrə əsasən, komanda hesabında birinci və ikinci yerdə xüsusi təyinatlılar, üçüncü yerdə isə motoatıcılar qərarlaşıb.



Yarışın sonunda fərdi və komanda hesabında ilk üçlüyə düşməyi bacaran qaliblərə kubok, diplom və fəxri fərmanlar təqdim edilib.

# İdman

## Azərbaycanın güllə atıcıları Avropa çempionatında növbəti medalı qazanıblar



Azərbaycan atıcıları Macarıstanın Dyör şəhərində keçirilən Avropa çempionatında daha bir medal qazanıblar.

Sofiya Barxalova, Leyli Əliyeva və Zeynəb Sultanovadan ibarət kollektiv trio komanda yarışında üçüncü yeri tutub.

Qeyd edək ki, qitə çempionatında daha əvvəl Leyli Əliyeva və Vladislav Kalmıkov qarışıq, Hacı Musayev, Vladislav Kalmıkov və İmran Qarayevdən ibarət yığma isə oğlanlar arasında komanda yarışında eyni uğura imza atıblar.

## Azərbaycan Paralimpiya Oyunlarına növbəti lisenziyanı qazanıb




Azərbaycan "Paris-2024" Yay Paralimpiya Oyunlarına növbəti lisenziyanı qazanıb.

Bu uğura paraüzgüçü Könül Süleymanova imza atıb.

Qeyd edək ki, Paralimpiada avqustun 28-dən sentyabrın 8-dək təşkil olunacaq.

## Azərbaycanın 9 boksçusu Dünya Olimpiya Təsnifat Turnirində iştirak edəcək



Boks üzrə Azərbaycan millisi martın 3-də İtaliyanın Busto Arsizio şəhərində start götürəcək Birinci Dünya Olimpiya Təsnifat Turnirində iştirak edəcək.

9 gün davam edəcək yarışda yığmanın 9 üzvü qüvvəsini sınayacaq.

Milli komandanın heyətində Nicat Hüseynov (51 kiloqram), Ümid Rüstəmov (57 kiloqram), Tayfur Əliyev (63,5 kiloqram), Sərxan Əliyev (71 kiloqram), Alfonso Dominges (92 kiloqram), Marjona Savriyeva (50 kiloqram), Zeynəb Rəhimova (54 kiloqram), Məhsəti Həmzəyeva-Ağamalıyeva (57 kiloqram) və Şəhla Abdullayeva (66 kiloqram) yer alacaqlar.

Turnirdə 114 ölkədən 632 (399 kişi, 233 qadın) boksçunun iştirakı gözlənilir. Kişi idmançıların mübarizəsində 28, qadınlarda 21 nəfər "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya əldə edəcək.

Reqlamentə əsasən, bütün çəki dərəcələrində yarımfinalçılar Fransa paytaxtında iştirak hüququna yiyələnəcəklər. Yalnız qadınlarda 57 kiloqramda finalçılar və 60 kiloqramda ilk 3 yer Olimpiya lisenziyasına sahib olacaq.

Kişilərdən ibarət Azərbaycan millisi fevralın 22-dən İtaliyada təlim-məşq toplanışındadır, qadın boksçular isə Busto Arsizioya sabah yollanacaqlar.

Qeyd edək ki, yığmanın heyətində artıq Murad Allahverdiyev (80 kiloqram) və Məhəmməd Abdullayev (+92 kiloqram) "Paris-2024"ə lisenziya qazanıblar.

## Azərbaycan gimnastı Rumıniyada bürünc medal əldə edib



Azərbaycan gimnastı Rumıniyanın Ployeşti şəhərində keçirilən XXIII "İrina Deleanu Cup" turnirində uğurlu nəticə əldə edib.

Beynəlxalq yarışda iştirak edən yığmanın üzvü İlona Zeynalova bürünc medal qazanıb.

O, çoxnövçülük proqramında bu uğura nail olub.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Mirzəliyev İlqar Elşən oğluna məxsus zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 79
Nüsxə 4650